MÜSAHİBƏ

# Rəna Abutalıbova: "Femmes digitales" olaraq biz İKT sektorunda mövcud stereotipi dəyişmək niyyətindəyik"

Qeyd etdiyimiz kimi, cari ildə 150 illiyini qeyd edəcək Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) 2015-ci ilin hər bir ayını innovasiya və davamlı inkişaf üçün hərəkətverici qüvvə hesab edilən İKT-nin müxtəlif istiqamətləri ilə bağlı mövzulara həsr edib. Beləliklə, təşkilat aprel ayında qlobal məkanın diqqətini "Qızlar, qadınlar və innovasiya" mövzusuna çəkməyi məqbul sayır. Müzakirələrin məhz İKT qızları ilə bağlı olduğu bu ayda "Rabitə dünyası" olaraq, biz də "Bakutel" sərgisinin layihə rəhbəri, İKT sahəsində çalışan qadınları əhatə edəcək ilk peşəkar qurum - Azərbaycan Qadınlarının İKT Klubu (AQİK) "Femmes digitales"-in həmtəsisçilərindən biri Rəna Abutalıbovanı suallara tutduq.

## Bəxtim gətirdi və... bu sevgi mənə öz işimdə çox kömək olur

**- İKT sektorunda fəaliyyətə başlamağınız bir təsadüfdür, yoxsa əvvəldən yaranan istəklə bağlı olub?**

- İxtisasım filoloq olsa da, mən əvvəllər İKT sektorunu gələcək fəaliyyət sahəsi kimi seçməmişdim. Lakin buna baxmayaraq, bəxtim gətirdi və 2006-cı ildə mən Azərbaycanda sərgi və konfransların peşəkar təşkilatçısı olan "Iteca Caspian" şirkətində menecer vəzifəsində çalışmağa başladım. 2007-ci ildən etibarən isə mən Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları ("Bakutel") sərgi və konfransının meneceri oldum və məhz bu tədbir sayəsində mən İKT sektoru ilə sıx təmasda olmağa başladım. Bilirsinizmi, mən sözün əsl mənasında İKT sektoruna vuruldum və bu sevgi mənə öz işimdə çox kömək olur.

## Qız və qadınlar əsasən sıravi işçi, ən yaxşı halda isə şöbə və idarə rəisi olurlar

**- Bu gün bütün dünyada belə bir tendensiya müşahidə edilir: İKT sektorunda qadın mütəxəssislər çox azdır. Sizin fikrinizcə, bunun səbəbləri nə ilə bağlıdır?**

- İşimlə əlaqədar olaraq, mən İKT sahəsində çalışan insanlarla, xüsusən də müxtəlif ölkələrdən olan nümayəndələrlə görüşməli oluram. Zənnimcə, hazırda qız və qadınlar İKT sektorunda kifayət qədər yaxşı təmsil olunurlar. Mən nazirliklər, yerli operatorlar və kommunikasiya şirkətlərinin əməkdaşları, eləcə də telekommunikasiya yönümlü ali təhsil müəssisələrinin tələbələri arasında xeyli sayda zərif cinsin nümayəndələrini müşahidə edirəm. Məsələn, ötən il Sudanın elm və kommunikasiya naziri d-r Tahani Abdulla Atiya, Rumıniya İnformasiya Cəmiyyəti Nazirliyinin köməkçi katibi İonella Dobriça, İsrailin İnternet İttifaqı Assosiasiyasının Baş direktoru Dina Bir və başqaları sərgini ziyarət etdilər. Biz yubiley sərgi münasibəti ilə ADA Universitetinin "İnformasiya texnologiyaları və mühəndislik sistemi" fakültəsinin birinci kurs tələbəsi, ali məktəbə 700 balla qəbul olunmuş Könül Qurbanlını "Bakutel" sərgisinin xüsusi mükafatı ilə təltif etdik. Bununla belə, qız və qadınlar əsasən sıravi işçi, ən yaxşı halda isə şöbə və idarə rəisi olurlar, sənayenin inkişafı naminə strateji qərarların qəbul edildiyi vəzifələrdə isə qadınlara nadir hallarda rast gəlirik. Bu, onunla əlaqədardır ki, kişilər öz gələcək fəaliyyət sahələri kimi tez-tez və məqsədyönlü şəkildə İKT sahəsini seçir, daha sonra isə əldə etdikləri uğurlar nəticəsində karyeralarında yüksəlirlər. Mənim fikrimcə, bu məsələdə İKT sahəsini zərif cinsin gənc nümayəndələri arasında təbliğ etməli olan dövlət və təhsil strukturlarının rolu çox mühümdür.

## "Bütün bunlar İKT sahəsində ixtisaslaşmanın genişləndirilməsini tələb edir ki, bu da peşə seçimində qız və qadınların diqqətini cəlb edərək onların marağına səbəb olacaq"

**- 20-ci "Bakutel-2014" Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi çərçivəsində Azərbaycan Qadınlarının İKT Klubu - "Femmes digitales"-in yaradılması elan edildi. Klubun məqsədi azərbaycanlı qadın və qızların bu sahə üzrə təhsil alması və karyera qurması üçün İKT-nin verdiyi imkanlardan faydalanmaq istəyini təşviq etməkdir. Zərif məxluqlardan ibarət olan bu klub İKT sektorunda rast gəlinən problemlərə təsir etmək üçün nə qədər güclü ola biləcək? Həmçinin qadın və qızların İKT sahəsində təhsil, karyera seçimlərinə necə dəstək verməyi düşünürsünüz?**

- "Femmes digitales" klubunun birinci iclasının məhz "Bakutel" sərgisinin çərçivəsində keçirilməsi bizim üçün çox xoşdur. Sözügedən klub əvvəlcə İKT sahəsində çalışan qadınlara dəstək vermək və onları birləşdirmək məqsədi ilə yaradılmışdı. Lakin düşünürəm ki, bu gün klubun əsas qayəsi məktəb və universitetlərdəki qızlara İKT sahəsində hansı müxtəlif peşələrin olduğu barədə məlumat verməkdir. Yüksək texnologiyalar hazırda insan fəaliyyətinin bütün sahələrinə nüfuz etmişdir. Məsələn, bu gün yüksək texnologiyalar və səhiyyə, İKT və təhsil, İKT və dizayn sahələri bir-birləri ilə bağlıdır. Bu siyahını istənilən qədər uzatmaq da olar. Bütün bunlar İKT sahəsində ixtisaslaşmanın genişləndirilməsini tələb edir ki, bu da peşə seçimində qız və qadınların diqqətini cəlb edərək onların marağına səbəb olacaq. Həmçinin, biz İKT sektorunda yalnız kişilərin uğurlu olduqları və bu sektorun sırf kişilərin fəaliyyət sahəsi olması barədə mövcud stereotipi dəyişmək niyyətindəyik. Klubumuzun üzvləri öz şəxsi təcrübələrində bilik, irادə və özünəinam sayəsində hansı zirvələri fəth etməyin mümkünlüyünü nümayiş etdirirlər.

## İKT sahəsində çalışan qızlar öz mübarizliyi və qarşılarına qoyulmuş məqsədlərə nail olmaq arzusu ilə seçilirlər

**- Sizin fikrinizcə, İKT-də olan qadın və qızlar digər sahələrdə çalışan həmcinslərindən hansı xüsusiyyətlərinə görə seçilirlər? Onlar arasında hər hansı fərq görürsünüzmü? Başqa sözlə, İKT sektorunu təmsil edən qadın və qızlar hansı fərqləndirici xüsusiyyətlərə malik olmalıdırlar?**

- İKT sahəsində qızlar güclü nizam-intizam və güclü xarakterləri ilə fərqlənirlər. Bundan əlavə, İKT sahəsində çalışan qızlar öz mübarizliyi və qarşılarına qoyulmuş məqsədlərə nail olmaq arzusu ilə seçilir, üstəlik, son dərəcə məsuliyyətli olurlar.



## "Bakutel" beynəlxalq sərgisinə rəhbərlik etdiyim 6 ildə nə kişilər, nə də qadınlar tərəfindən hər hansı maneə ilə rastlaşmamışam

**- Belə fikir var ki, irəli gedən, karyera pillələrində qalxan qadınların uğurları əkscins tərəfindən qısqanclıqla qarşılanır. Sizə qarşı belə münasibət olubmu və ya bilərəkdən qarşınızda süni maneələr yaradılıbmı?**

- Mən artıq 6 ildir ki, "Bakutel" beynəlxalq sərgisinə rəhbərlik edirəm və bu müddət ərzində nə kişilər, nə də qadınlar tərəfindən hər hansı maneə ilə rastlaşmamışam. Mənim həmkarlarım və sərginin iştirakçıları mənə həmişə kömək edirlər. Mən onlardan xeyli bilik əldə etmişəm. Fürsətdən istifadə edərək, işimi asanlaşdıran və mənə inanan hər kəsə öz minnətdarlığımı bildirirəm.

## Bəlkə bizim üstünlüyümüz də elə bundadır?

**- "Bakutel" sərgisinin layihə rəhbərisiniz. Komanda tərkibində, eləcə də sərginin təşkili ilə əlaqədar İKT sektorunda çalışan həm qadın, həm də kişi kadrlarla çalışırsınız. Hansılar ümidlərinizi daha çox doğruldur və işlərinə məsuliyyətlə yanaşırlar?**

- Zənnimcə, bərabər sosial şəraitdə ağıl və yaradıcılıq qabiliyyəti ilə yanaşı, insanın uğur qazanmaq üçün həvəslə, yaxud həvəssiz çalışması onun cinsiyyətindən yox, bilavasitə xasiyyətindən asılıdır. Onu da qeyd edim ki, qadınlar öz ictimai-mədəni statuslarından dolayı yaxınlarına qarşı daha qayğıkeş və canıyanan olur, gərgin iş rejimində daha davamlı çalışaraq güzəştə getməyə hazır olurlar. Bəlkə bizim üstünlüyümüz də elə bundadır? Fikrimcə, öz peşəsini sevən və səylə çalışan hər bir kəs ən yüksək zirvələri fəth edə bilər. "Iteca Caspian" şirkətinin də kollektivi məhz buna görə, yəni öz peşəsini sevdiyi üçün fərqlənir. Nəticə etibarı ilə bu sevgi həmkarlarla ünsiyyətdə, işçinin və həmkarlarının layihələrinə göstərilən qayğıda hər kəsə sirayət edir. Buna görə də, mənim üçün belə bir mühitdə, kişi və qadınlardan ibarət olan bu cür kollektivdə işləmək çox rahatdır.

## Ailə üzvlərim bunu anlayışla qarşılayaraq mənə dəstək olurlar

**- Vaxtınızı ailə ilə karyera arasında necə balanslaşdırırsınız? Vaxt qıtlığı, vaxt ayrılmamasına görə ünvanınıza şikayətləri daha çox haradan eşidirsiniz: evdən, yoxsa işdən?**

- Mən daim məşğulluq baxımından işim və ailəm arasındakı tarazlığı qorumağa çalışmışam. Mənim həyatdakı prioritetim bu olub və olacaq. Mən tam əminlikdə deyə bilərəm ki, qadın özünü yalnız o halda uğurlu hesab edə bilər ki, o həm işdə, həm də evdə uğur qazanmış olsun. Mən bu günə kimi öz prinsipimə əməl etmişəm və buna görə də heç kim tərəfindən hər hansı iradla qarşılaşmamışam. Əlbəttə, ailəmə və övladıma daha çox vaxt ayırmaq istərdim. Lakin işim də mənim üçün çox vacibdir və mənim ailə üzvlərim bunu anlayışla qarşılayaraq mənə dəstək olurlar. Mən inanıram ki, oğlum böyüyəndən sonra öz işində uğurlar qazanmış anası ilə fəxr edəcək!

***Həqiqət İSABALAYEVA***